**AZƏRBAYCAN RESPUBLİKASININ**

**AUDİTORLAR PALATASI ŞURASININ**

**QƏRARI**

**Bakı şəhəri** **№352/3** **29 dekabr 2022-ci il**

**"Auditor xidmətinin dəyərinin nümunəvi hesablama metodikası" barədə**

Azərbaycan Respublikasının Auditorlar Palatası sədrinin 2022-ci il 20 iyul tarixli 1/24 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Auditorlar Palatasının üzvləri arasında peşə fəaliyyətinə dair aparılmış sorğunun nəticələrinin tətbiqi ilə bağlı Tədbirlər Planı"nın 10-cu "Auditor xidmətlərinin dövlət satınalmalarında ehtimal olunan qiymətinin müəyyənləşdirilməsi qaydalarının hazırlanması" bəndinin icrası ilə əlaqədar Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov və "Azəruçot" MMC-nin direktor-auditoru E.Təhməzov tərəfindən təqdim edilmiş "Auditor xidmətinin dəyərinin nümunəvi hesablama metodikası"nın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Auditor xidmətinin dəyərinin nümunəvi hesablama metodikası" bəyənilsin (əlavə olunur).

2. Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinə (V.Cavadov) tapşırılsın ki, iki həftə müddətində "Auditor xidmətinin dəyərinin nümunəvi hesablama metodikası"nın auditor təşkilatlarına və sərbəst auditorlara çatdırılması təmin edilsin.

3. Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, 2023-cü ilin yanvar ayında auditor təşkilatlarının rəhbərləri və sərbəst auditorlar üçün "Auditor xidmətinin dəyərinin nümunəvi hesablama metodikası"nın şərhinə dair seminarın keçirilməsi təmin edilsin.

4. Bu qərarın və "Auditor xidmətinin dəyərinin nümunəvi hesablama metodikası"nın mətnləri Palatanın internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**